# Tbilisidə kütləvi informasiya vasitələrinin 13-cü Cənubi Qafqaz konfransı keçirilib

Konfransda əsasən Cənubi Qafqazda və Avropa ölkələrində KİV-in vəziyyəti, söz, mətbuat azadlığı, jurnalistlərin təhlükəsizliyi, bu sahədə qanunvericilik, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, tətbiqi və s. məsələlər müzakirə olunub.

Tədbirin açılışında Gürcüstanın xarici işlər naziri Mixail Canalidze çıxış edərək ölkəsində söz, mətbuat azadlığı, jurnalistlərin təhlükəsizliyinin qorunması istiqamətində görülən işlərdən danışıb.

ATƏT-in media azadlığı üzrə xüsusi nümayəndəsi Dunya Miyatoviç çıxış edərək qloballaşan dünyada informasiya mübadiləsinin, mətbuat azadlığının təmin olunmasının vacibliyindən danışıb. Bildirib ki, son vaxtlar qaynar bölgələrdə, eləcə də digər mühitlərdə vəzifə borcunu yerinə yetirən çoxlu sayda jurnalist qətlə yetirilib, təhqir və təzyiqlərə məruz qalıb. Bizim əsas məqsədimiz jurnalistlərin və sosial şəbəkələrdə çalışan bloggerlərin təhlükəsizliyinə nail olmaqdır.

Konfransın yekunları ilə bağlı birgə bəyanat müzakirəyə çıxarılarkən Ermənistan nümayəndə heyəti tərəfindən yekun sənədə jurnalistlərin adlarının "qara siyahı"lara salınmasını pisləyən müddəanın daxil edilməsi təklifi irəli sürülüb. Ermənilər Azərbaycan Xarici İşlər Nazirliyinin işğal olunmuş Azərbaycan ərazilərinə qeyri-qanuni səfər edən xarici jurnalistlərin adlarının "arzuolunmaz şəxslər" siyahısına daxil etməsinin yolverilməz olduğunu iddia edib və yekun sənəddə bunun pislənilməsini istəyiblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri isə bildiriblər ki, ermənilər bununla konfrans iştirakçılarının diqqətini Ermənistanda medianın real vəziyyətinin müzakirəsindən yayındırmağa və bu ölkədə baş verən ciddi qanun pozuntularının üstünü örtməyə çalışırlar.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Kamran Həsənov deyib ki, Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən tərtib olunan "qara siyahı"ya vəzifəsindən, peşə mənsubiyyətindən və statusundan asılı olmayaraq Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik göstərən, qeyri-qanuni şəkildə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər edən şəxslər daxil edilir. Bu, Ermənistan nümayəndə heyətinin iddia etdiyi kimi "jurnalistlərin qara siyahısı" deyil, Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik göstərən və buna görə də Azərbaycanda arzuolunmaz elan edilən şəxslərin siyahısıdır. Ermənistan nümayəndə heyətinin özünə sərf edən formada məsələnin mahiyyətini təhrif etmək, təxribatçı niyyətlərini reallaşdırmaq cəhdləri yolverilməzdir və buna görə də irəli sürülən təklif nəzərə alınmamalıdır.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Sərxan Ağakişiyev çıxış edərək bildirib ki, işğal altında olan Azərbaycan ərazilərinə səfər etmək və çəkiliş aparmaq istəyən xarici media nümayəndələri Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və milli qanunvericiliyinə hörmətlə yanaşmalı, müvafiq qaydada akkreditasiyadan keçməlidirlər. O, təklifin əsassız və qərəzli olduğunu qeyd etməklə yanaşı bildirib ki, bu iddia yekun sənədə daxil edilərsə, onda Azərbaycan nümayəndə heyətinin təklifi də bəyanata əlavə olunmalıdır. Azərbaycan nümayəndə heyəti yalnız bir halda bu düzəlişlə razılaşa bilər ki, müddəada jurnalistlərin həmin ərazinin aid olduğu dövlətin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşması, akkreditasiya qaydalarına əməl etməsi məsələləri də öz əksini tapsın.

Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Məmmədov, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin (CASCFEN) rəhbəri Azər Həsrət, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev də çıxış edərək ermənilərin təklifinin əsassız olduğunu diqqətə çatdırıblar.

Azərbaycan nümayəndə heyətinin etirazından sonra təşkilatçılar konsensusun əldə olunmadığı hər hansı bir müddəanın bəyanata daxil edilməsinin mümkünsüz olduğunu vurğulayaraq iştirakçıları digər təkliflərin müzakirəsinə dəvət ediblər. Bu isə Ermənistan nümayəndə heyətinin etirazına səbəb olub və onlar bəyanatın son variantının müzakirəsi zamanı toplantını tərk ediblər. ATƏT-in media azadlığı üzrə xüsusi nümayəndəsi Dunya Miyatoviç bildirib ki, bu konfrans KİV üçün müzakirə meydanıdır və tədbirdə siyasi mövzular deyil, media ilə bağlı məsələlər müzakirə olunmalıdır.

***Xətayi ƏZİZOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Tbilisi*